

**Məmmədov Fəxrəddin Əhməd oğlu 1960-cı il dekabr ayının 1-də Astara rayonunun Ərcivan kəndində müəllim ailəsində anadan olmuşdur. Özlərində ən gözəl insani xüsusiyyətləri cəmləşdirən valideynləri- həm atası, həm də anası xeyirxah əməlləri, səmimiyyəti, təvazökarlığı, zəhmətsevərliyi, qayğıkeşliyi ilə seçilmiş, adları bu böyük el-obanın nüfuzlu müəllimləri kimi xüsusi hörmətlə çəkilmişdir.**

# Ailədən rişələnən nüfuz

**Təbii ki, bütün bunlar Fəxrəddinin taleyində, həyata baxışında, cəmiyyətdəki mövqeyində, ətrafdakılara münasibətində, ən önəmlisi torpağa bağlılığında təsirsiz ötüşməmişdir.**

Cənub bölgəsinin sayılıb-seçilən sənətkarlarından olan Fəxrəddin Məmmədovun ömür kitabını vərəqləyərkən dəyərli oxucularımız buna bir daha əmin olacaq və müdrik bir el məsəlini yada salacaqlar: "Ot kökü üstündə bitər..."

Atası Böyük Vətən müharibəsinin iştirakçısı olub. Qorxmazlığı, şücayəti ilə fərqlənib, Berlinədək döyüş yolu keçib. Orden və medallara layiq görülüb. İndi əlçatmaz, ünyetməz uşaqlıq çağlarını, atalı-analı illərini Fəxrəddin böyük niskil və həsrətlə xatırlayır.

- Ailədə doqquz övlad olmuşuq. Sonbeşik mən olmuşam. Sonbeşik də həm evin ən əzizi, həm də ən çox buyrulanı olur. Bütövlükdə hamımız zəhmətlə böyümüşük. Kasıb yaşasaq da heç vaxt tutduğumuz yoldan sapmamış, sabaha inamımızı itirməmişik, hər şeyin sonunu nikbinliklə gözləmişik. Bu, ata-anamızın bizə verdiyi yüksək tərbiyənin, öyüd-nəsihətin nəticəsidir.

Bacı-qardaşlarımın əksəriyyətinin ali və orta ixtisas təhsili var. Təvazökarlıqdan uzaq olsa da deyim ki, uşaqlıqdan mənim səsim müəllimlərimin nəzərindən yayınmayıb. Hər hansı bir toplantı, mədəni tədbir olanda oraya qatılmışam. Sonralar, sənətə nə qədər bağlı olsam da tibb universitetinin qapılarını döydüm. Lazım olan balı toplaya bilmədim. Ordu sıralarında xidmətdən sonra Moskvada ali təhsil aldım. Amma bu illər ərzində ecazkar muğamlarımız, unudulmaz xalq mahnılarımız həmişə həyat bələdçim oldu, musiqimiz dilimdən düşmədi.

1989-cu ildə mən Ərcivan kənd mədəniyyət evində işə düzəldim - bədii rəhbər. Burada "Dərya" instrumental ansamblını təşkil etdim. Ansambl 8 nəfərdən ibarətdir.

Ansambl dövlət tədbirlərində, el şənliklərində yaxından iştirak edir, əsgər və zabitlər, çağırışçılar qarşısında rəngarəng çıxışları ilə diqqət çəkir. Nə qədər diplom və fəxri fərmanlara layiq görülmüşük.

Mən bir xanəndə kimi repertuarımda muğam və xalq mahnılarına daha çox üstünlük verirəm.

Üç övladım- iki qızım və bir oğlum var. Hamısı ailə qurub. Artıq beş nəvəm də var.

Bilirsiniz ki, uşaq muğam ifaçılarının respublika muğam müsabiqəsi Astarada təşkil olunur. Bu tədbirin təşkili və keçirilməsində də ansamblımızın zəhmət payı vardır.

Bu işdə ansamblın üzvlərindən Zakir Əsədullayevin, Faiq Dadaşovun, Zaur Məmmədovun, Mahir Əliyevin, Tarif Səfərovun və başqalarının adlarını çəkmək istərdim.

**Dövlətimizin muğam sənətinə xüsusi qayğı ilə yanaşması, sənəti yüksək dəyərləndirməsi bizi daha yaxşı çalışmağa ruhlandırır. Düşünürəm ki, ansamblımızın əsl uğurları hələ qarşıdadır...**

**A. QOCAYEVA**

